# Yeni dövrün seçkiləri

**Milli Məclisə növbədənkənar seçkilər dövrün yeni reallıqlarından irəli gəlir. Bu il suveren ərazilərimizdə ikinci seçki prosesi baş tutacaq.**




Fevralın 7-də keçirilən prezident seçkiləri seçici fəallığı ilə yadda qaldı. Müstəqil, ərazi bütövlüyünü tam təmin etmiş ölkəmizdə keçirilən prezident seçkiləri Azərbaycanın gücünün, qüdrətinin göstəricisi idi. 1991-ci ildən 2023-cü ilə qədər ölkəmizin bəzi bölgələrində seçki keçirmək imkanı yox idi. Ötən ilin sentyabrında həyata keçirilən antiterror tədbirlərində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə yenilməz Ordumuzun gücü sayəsində bütün ərazilərimizdə suverenlik tam olaraq bərpa edildi. Bununla da Azərbaycan yeni inkişaf mərhələsinə qədəm qoydu.

**(davamı 4-cü səhifədə)**

(əvvəli 1-ci səhifədə)

Bəli, bu gün üçrəngli bayrağımız vətənimizin hər guşəsinin ən uca zirvəsində dalğalanır. Ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı, Prezident İlham Əliyevin qətiyyəti və yüksək diplomatik fəaliyyəti nəticəsində Azərbaycan yenidən suveren, azad və tam ərazi bütövlüyünə sahib bir ölkəyə çevrilib.

Ölkə başçısının Sərəncamına əsasən sentyabrın 1-də ölkəmizdə Milli Məclisə növbədənkənar seçkilər keçiriləcək. Müstəqil dövlətimizin qanunverici orqanına seçkilər əvvəlkilərdən fərqli olacaq. Çünki bu seçkilər bütün Azərbaycanı əhatə edəcək. Müstəqilliyin bərpasından sonrakı dövrdə keçirilən heç bir parlament seçkiləri dövlətimizin tam suveren ərazisini əhatə etməyib. Artıq öz ata-baba yurdlarına qayıtmış vətəndaşlar Qarabağ və Şərqi Zəngəzurda Milli Məclisdə təmsil olunmağa layiq gördükləri şəxslərə səs verəcəklər. 44 günlük Vətən müharibəsində qələbədən sonra yaranmış yeni reallıqlar həm də yeni dövrün tələblərinə uyğun parlamentin formalaşdırılmasını zəruri edir. Cənab İlham Əliyev 7 fevral prezident seçkilərindən sonra andiçmə mərasimində və ondan sonrakı çıxışlarında qarşıda duran prioritet vəzifələrin yerinə yetirilməsi üçün növbədənkənar prezident seçkilərinin ardınca parlament seçkilərinin keçirilməsini də vacib hesab edib. Beynəlxalq münasibətlərdə, əməkdaşlıq sahəsində müasir dövrə uyğun iştirakımız baxımından Milli Məclisə seçkilər böyük əhəmiyyət kəsb edir.

Bu gün Azərbaycan yeni çağırışlara cavab verən parlament formalaşdırmaq mərhələsindədir. Ölkəmizdə keçiriləcək növbədənkənar parlament seçkiləri yerli və beynəlxalq ictimaiyyətin diqqət mərkəzindədir.

Azərbaycanın bütün ərazisini əhatə edəcək növbədənkənar parlament seçkiləri də prezident seçkiləri kimi azad, şəffaf, demokratik və mütəşəkkil şəkildə keçiriləcək. Onu da qeyd edək ki, sentyabrın 1-də Milli Məclisə seçkilərlə əlaqədar 46 ölkə və 29 qurumdan, ümumilikdə 267 beynəlxalq və 50 mindən çox yerli müşahidəçi qeydiyyatdan keçib. İlk dəfə olaraq parlament seçkilərinin işğaldan azad edilmiş ərazilərdə də keçirilməsi ölkəmizin ərazi bütövlüyünün qanunvericilik müstəvisində təsdiqinin bariz nümunəsi olmaqla yanaşı, xalqımızın sürətlə inkişaf edən demokratik Azərbaycan naminə səsvermə prosesinə güclü dəstək verdiyini bütün dünyaya nümayiş etdirəcək.

**Ramidə YAQUBQIZI,**
**"Respublika".**

Respublika.- 2024.- 15 avqust, (№ 172).- S.1;4.